A.A.XƏLƏFOV

# KİTABXANA İŞİNİN TARİXİ KURSUNA GİRİŞ

BAKI – 2002

2002
1294

4733
X-47

A.A.XƏLƏFOV
Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor

75845

# KİTABXANA İŞİNİN TARİXİ KURSUNA GİRİŞ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2002

ARXİV

73383

4733(2A)

**Redaktoru: K. Aslan**

«Kitabxana işinin tarixi kursuna giriş» vəsaitində kitabxana anlayışının elmi izahı, cəmiyyət və mədəniyyət tarixində kimtabxanaların rolu və yeri, qədim dünya kitabxanalarının yaranması və inkişaf xüsusiyyətləri, görkəmli şəxslərin kitabxanaları və onların kitabxana haqqında fikirləri, kitabxana tarixinin quruluşu, ona verilən tələblər, kitabxanaların sosial funksiyaları və s. məsələlər tutarlı tarixi elmi izahını tapa bilmişdir. Vəsaitdən yüksək ixtisaslı mütəxəssislər, tələbələr və mədəniyyət tarixini öyrənənlər istifadə edə bilər.

*Bakı Universiteti nəşriyyatı, 2002.*

«Kitabxana işinin tarixi» humanitar elmdir. O, cəmiyyət tarixinin xüsusilə mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir. Tarix elmi insan cəmiyyətinin keçmişini konkret və hərtərəfli öyrənir, ümumiləşdirmələr aparır ki, bu da cəmiyyətin hazırkı vəziyyətini və gələcək perspektivini dərk etmək üçün əlverişli şərait yaradır.

Başqa elmlər kimi tarix elmi də inkişaf prosesində, ardıcıl qaydada bəşəriyyətin zəngin təcrübəsini özündə cəmləşdirib əks etdirmiş, onun məzmununu xeyli genişləndirmiş, maddi və mənəvi həyatın minillik ənənəsini qoruyub saxlamağa müvəffəq olmuşdur. Cəmiyyətin konkret və çoxcəhətli həyatı tarix elminin predmetidir. Tarix elminin əsas vəzifəsi cəmiyyətin konkret tarixini keçmişin və müasir dövrün faktlarına əsaslanaraq öyrənib ümumiləşdirmək, sistemləşdirmək, konkret elmi, obyektiv nəticələr çıxarmaqdır.

Tarix elmi yalnız faktların toplanması ilə kifayətlənməməli, faktların ümumiləşdirilməsi əsasında cəmiyyət həyatında baş verən ayrı-ayrı hadisələrin, proseslərin mahiyyətinin dərk olunmasına və bütövlükdə cəmiyyətin inkişafının spesifik qanunlarının dərk olunmasına kömək göstərməlidir.

Tarix elmi konkret tarixi faktları və hadisələri ictimai proseslərlə əlaqədə öyrənərkən tarixilik prinsipinə əsaslanmalıdır. Həmin prinsipə əsaslanmamaq

tarixi gerçəkliyin təhrifinə aparıb çıxarar ki, bu da tarix elminin obyektiv inkişafına ciddi zərbə vura bilər. Beləliklə, cəmiyyətin obyektiv inkişaf qanunlarını yalnız tarix elminin nailiyyətləri əsasında işıqlandırmaq, ifadə etmək mümkündür.

Cəmiyyətin tarixinin müxtəlif tərkib hissələri vardır ki, bunların da ən mühümlərindən biri mədəniyyət tarixidir. Bilavasitə cəmiyyət tarixinə əsaslanan mədəniyyət tarixi öz qarşısına daha konkret vəzifə: cəmiyyətin yaratdığı bütün maddi və mənəvi mədəniyyətin tarixini öyrənmək vəzifəsini qoymuşdur.

«Mədəniyyət» sözü hərfən «əkmək, becərmək» mənasını bildirib, «nə isə yaratmaq, yetirmək» anlayışı ifadə edir.

«Mədəniyyət» termini bəşəriyyətin keçdiyi üç dövrün (vəhşilik, barbarlıq, svilizasiya) sonuncusunu, yəni sivilizasiya mərhələsini bildirmək üçün qəbul edilmişdir. Dünya mədəniyyət tarixini misilsiz incilərlə zənginləşdirmiş Azərbaycan xalqı əsrlər boyu inkişafda olan qədim və bənzərsiz mədəniyyətə malikdir. Bu mədəniyyət xalqımızın minilliklər ərzində yaratdığı bütün maddi və mənəvi sərvətlərin məcmusundan ibarətdir. Maddi mədəniyyət cəmiyyətin maddi istehsalından, texnikadan, maddi nemətlər istehsalına xidmət edən bütün vasitələrdən, tarixi abidələrdən, muzeylərdən və sairdən; mənəvi mədəniyyət isə cəmiyyətin müəyyən inkişaf pilləsində, müəyyən tarixi şəraitdə meydana gəlib inkişaf edən xalq maarifindən, elmi işlərdən, fəlsəfədən, əxlaqdan, ədəbiyyat və incəsənətdən ibarətdir. Cəmiyyətin bütün bu mədəni nailiyyətlərinin qorunub saxlanılmasında mədə-



niyyətin ən mühüm sahələrindən biri olan kitabxanalar çox böyük rol oynayırlar.

«Kitabxana» ərəb və fars sözlərinin birləşməsindən yaranmış, hərfi mənası «kitab saxlanılan yer» deməkdir. Kitabxanalar yazılı abidələrin saxlayıcısı kimi bəşər tarixinin çox qədim dövrlərində meydana gəlmişdir. Kitabxanalar çap məhsullarından və digər informasiya vasitələrindən ictimai istifadəni təşkil edən, ədəbiyyatın seçilməsi, təbliğ olunması və mütaliənin istiqamətləndirilməsi yolu ilə hərtərəfli inkişaf etmiş insanın formalaşmasında yaxından iştirak edən mədəni-maarif, informasiya və tərbiyə müəssisəsidir. Kitabxanalar elmi-texniki tərəqqiyə kömək göstərməklə yanaşı, elm və texnikanın nailiyyətlərini, mütərəqqi istehsal təcrübələrini yaymaq sahəsində də mühüm işlər aparırlar.

Kitabxana məhdud və geniş oxucu dairəsinin, həmçinin hər kəsin, hər bir şəxsin istifadəsi üçün hər cür çap əsərlərini, əlyazmaları, audiovizual vasitələri, başqa sözlə, görülən, eşidilən, şəkilli nəşrləri və vasitələri toplayan, onun qaydaya salınıb saxlanılması, qorunması üçün şərait yaradan, topladığı sərvətin oxuculara çatdırılması üçün ən müasir təbliğat üsullarından istifadə edən sosial institutdur.

Kitabxanalar Şumer və Nineva gil lövhələrindən, Misir papiruslarından, orta əsr kilsə və monastr kitabxanalarının kasıb fondlarından başlayaraq bugünkü pulsuz ümumi kitabxanalara qədər uzun bir yol keçmişdir. Bu tarixi yolu keçərkən onlar cəmiyyətdə baş verən proseslərə, yeni dövrün tələbatlarına uyğun olaraq böyük dəyişikliklərə məruz qalmışlar. İctimai

həyatda meydana çıxan köklü islahatlar kitabxanaların işində də yeniləşmələrə səbəb olurdu. Ancaq bütün bunlara baxmayaraq bilavasitə kitabxanaların özünəməxsus bir sıra qanunauyğunluqları dəyişilməz qalırdı ki, bu da kitabxanalara institut bütövlüyü verirdik.

YUNESKO-nun 1968-ci ildə nəşr edilmiş sənədlərində -«kitabxana» anlayışı aşağıdakı kimi ifadə edilmişdir. Kitabxana, necə adlanmasından asılı olmayaraq, əlyazması, çap kitabı, dövri nəşrlər, audiovizual materiallar və s. nəşrləri və vasitələri, həmçinin digər informasiya daşıyıcılarını toplayıb saxlayan və bilik, təhsil, tədqiqat və istirahət məqsədləri üçün oxucuların istifadəsinə verən bir qurumdur.

Göründüyü kimi, kitabxana öz fondlarında elə nəşrləri və məlumat daşıyıcılarını toplamalıdır ki, həmin vasitələr geniş xalq kütlələrini əhatə edən oxucuların biliklərə yiyələnmək, elmi tədqiqatla məşğul olmaq, təhsil almaq və istirahət etmək tələbatı əsasında formalaşan sorğularına cavab verə bilsin.

Dünyanın görkəmli filosofları, alimləri, mədəniyyət və dövlət xadimləri, kitabxanaşünasları kitabxana işinin əsas məqsədinin mənəvi sərvətlərin əsas daşıyıcılarından biri kimi mədəniyyətin inkişafına kömək göstərməkdə və bəşər sivilizasiyasının tərəqqisinə xidmət etməkdə görürlər.

Sivilizasiyanın başlanğıcından zəmanəmizə qədər olan dövrdə kitabxana tarixinə nəzər saldıqda həm qədim dünya kitabxanalarının, həm də inkişaf etmiş müasir kitabxanaların fəaliyyətində iki mühüm amil diqqəti cəlb edir.



1. Kitabxana bəşər elmi sərvətlərini toplayıb, qoruyub saxlayıb, onları insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin öyrənilməsi və tətbiqi üçün şərait yaradır. Beləliklə də elmi-texniki tərəqqiyə, elmi nəzəriyyələrin, kəşflərin istehsalata tətbiqi prosesinə kömək göstərir.

Elmlə istehsalat arasında, tədqiq və tətbiq arasında vasitə kimi çıxış edir.

2. Kitabxana elm, mədəniyyət, ədəbiyyat, incəsənət və təhsil kimi mənəvi sərvətlərə dair çap əsərlərinin, məlumatın, biliyin yayılmasında fəal iştirak etməklə tərbiyə prosesinə, bəşəri əxlaqi biliklərə yiyələnmə prosesinə, cəmiyyətin inkişafına yardımçı ola biləcək intellektual səviyyəli insan yetişdirilməsi prosesinə xidmət göstərir.

Bütün bu məqsədlərə nail olmaq üçün kitabxanalar uzun və keşməkeşli tarixi yol qət etmiş, müasir kitabxanalar halına gəlmiş, formalaşmış və sosial institutlara çevrilmişlər.

Kitabxanaların qarşısında duran məqsədlər əsasən bir-biri ilə bağlı olan üç vəzifənin yerinə yetirilməsini tələb edirdi. Bu üç vəzifəni yerinə yetirmədən kitabxananı bəşəriyyətin inkişafına xidmət edən müəssisəyə çevirmək, elmi biliklərin toplandığı mərkəz və tərbiyə məktəbi səviyyəsinə yüksəltmək mümkün olmazdı.

Bu vəzifələr aşağıdakılardı:

1. İnformasiya daşıyıcılarını əldə etmək;

2. Kitabxana fondlarını yaratmaq və qaydaya salmaq;

3. Kitabxanada toplanmış informasiya daşıyıcılarından istifadəni təşkil etmək.

Əhalinin müəyyən təbəqəsinə, müəyyən oxucu dairəsinə xidmət etməyi öz qarşısına məqsəd qoyan kitabxana, hər şeydən əvvəl elm, bilik, mədəniyyət, təhsil daşıyıcıları olan kitablar, dövri mətbuat və digər audiovizual materiallarla öz fondunu yaratmağa borcludur. Çünki kitabxananın fondu, onun əsas yadrosu yaradılmadan kitabxana xidmətindən danışmaq mümkün deyildir. Kitabxana məfhumu o zaman meydana gəlib reallaşır ki, onun oxucuların tələbatını, sorğularını ödəmək imkanı və maddi-texniki bazası olsun. Əlbəttə, bu bazanın əsas hissəsini informasiya daşıyıcıları təşkil edir. Məhz buna görədir ki, tarixə nəzər saldıqda dünya kitabxanalarının qiymətinin, bəşər mədəniyyətinə xidmət prosesində iştirakının mühüm amillərindən, başlıca göstəricilərindən biri kimi onun fondu nəzərdə tutulmuş, fondun komplektləşdirilib tədricən təkmilləşdirilməsi kitabxana işinin əsaslarının əsası, bünövrəsi hesab edilmişdir. Odur ki, tarixən kitabxana fondları eyni zamanda elmin, mədəniyyətin, təhsilin, biliyin qızıl fondları kimi qiymətləndirilmiş, onların əsas daşıyıcısı hesab edilmiş kitabxanalar isə bütün elmi kəşfləri, intellektual nailiyyətləri, cəmiyyətin yaratdığı bütün dünyəvi sərvətləri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə çatdıran mühüm mədəniyyət mərkəzi, elmi bilikləri yayan institut kimi səciyyələndirilmişdir. Heç təsadüfi deyildir ki, tarixin ilk çağlarından bu yana dünyanın ən görkəmli dühaları kitabxanaların topladığı elmi və mədəni sərvətləri



bəşəriyyətin bilik və düşüncələrinin, insan yaradıcılığının daşıyıcıları kimi dəyərləndirmişlər.

Bu daşıyıcılar birdən-birə yaranmamış, böyük tarixi inkişaf yolu keçmiş, tədricən meydana gəlib formalaşmış, öz şəklini dəyişərək təkmilləşmişdir. Dünya kitab və kitabxana tarixindən məlum olduğu kimi, insan yaradıcılığının daşıyıcıları yazı materiallarından asılı olaraq öz formasını dəyişməyə məcbur olmuşdur. Bizim eradan 4 min il əvvəl Piramidalar ölkəsi olan Misirdə yazının kəşfi dünya sivilizasiyasının, dünya mədəniyyətinin inkişafı tarixində böyük inqilabi hadisə kimi qarşılandı. Yazının kəşfi insan zehninin, düşüncəsinin, yaddaşının əbədiləşdirilməsi, mənəvi sərvətlərin qorunub saxlanması, nəsildən-nəslə çatdırılması üçün, dünya elminin tərəqqisi üçün əvəzsiz bir vasitəyə çevrildi. Qədim insanlar yazını kəşf etdikdən, yazmaq texnikasına yiyələndikdən sonra, nəyin üzərində və necə yazmaq haqqında da düşünməyə başlamış və əsrlər keçdikcə yeni-yeni yazı materialları kəşf etmiş, tarixi təkmilləşmə prosesində bu mühüm işi tədricən inkişaf etdirməyə müvəffəq olmuşlar. Qədim insanlar yazı materialı kimi daşdan, ağacdan, gil lövhələrdən, heyvan sümüklərindən, tuncdan, papirusdan, perqamentdən, ipək parçalardan və nəhayət kağızdan istifadə etməyə başlamışlar. Göründüyü kimi yazının meydana gəlməsindən kağızın kəşfinə qədər uzun yol keçən kitab öz forma və məzmununu dəyişərək bəşəriyyətin tərəqqi və inkişafına əvəzsiz xidmətlər göstərmiş, insan biliyinin, elm və mədəniyyətin əsrdən-əsrə, nəsildən-

nəslə keçməsinə kömək etməklə bəşər sivilizasiyasının inkişafının əsas amillərindən biri olmuşdur.

Məhz buna görədir ki, bəşəriyyətin yetişdirdiyi bütün görkəmli şəxsiyyətlər: filosoflar, alimlər, yazıçılar kitabın böyüklüyü, müqəddəsliyi qarşısında baş əymiş, şəninə gözəl kəlamlar söyləmiş, onun yaradılmasına, çoxaldılmasına, qorunub saxlanılmasına həmişə qayğı göstərmişlər.

Daş kitabələrdən sonra bəşəriyyətin ən çox və kütləvi halda istifadə etdiyi yazı materialı gil lövhələr olmuşdur. Gil lövhələrdən istifadə etmək o səviyyəyə gəlib çatmışdır ki, qədim dünyanın ən böyük dövlətlərindən biri sayılan, nəhəng imperiya kimi uzun müddət fəaliyyət göstərən Assuriyada milyonlarla gil lövhədən ibarət kitablar saxlanılan, keçmiş zamanların möcüzəsi hesab edilən zəngin kitabxanalar olmuşdur.

1852-ci ildə ingilis Henri Osyan Leyyard bütün dünyaya özünün olduqca maraqlı kəşfi: Assuriyanın axırıncı böyük çarı Aşşurbanipalın Neynəvadakı sarayını və kitabxanasını tapması haqqında məlumat verdi. O, Aşşurbanipalın «Nəsihət və məsləhət evi» adlanan sarayında Assuriya çarlarının qədim və ən böyük kitabxanasını tapdı. Aşşurbanipal (e.ə. təqribən 669-663) tarixdə həm də qədim yazılı abidələrin toplayıcısı, gil lövhələrdən ibarət böyük bir kitabxananın yaradıcısı kimi də məşhurdur. Qədim Assuriya çarları içərisində yazıb oxumağı bacaran, biliyə, elmə, yazılı ədəbiyyata böyük qiymət verən Aşşurbanipalın kitabxananın yaradılmasında, xüsusilə gil lövhələr istehsalı texnologiyasının hazırlanmasında, onun odlu kürədə



bişirilib möhkəm və davamlı yazı materialı şəklinə gətirilməsində, qədim əfsanələrin, yazılı mənbələrin, gil lövhələr üzərinə köçürülməsində böyük xidmətləri olmuşdur.

Gil lövhələr hazırlayan mirzələr 32 x 22 sm ölçüdə, qalınlığı 2,5sm olan lövhələr düzəldir, ucu iti olan karandaşa oxşar çubuqla mətni onun üzərinə yazır (cızır), günəş altında qurudur, sonra isə sınmasın deyə odlu kürədə bişirirdilər. Beləliklə, gil lövhələr möhkəm və uzunömürlü olurdu. Onlar oda və suya davamlı idilər. Hər bir kitab çoxlu səhifələrdən ibarət ola bilərdi. Elə bil ki, hər bir lövhə çoxsəhifəli kitabın bir səhifəsi idi. Lövhələr nömrələnir, rəflərdə bir-birinin arxasınca düzülürdü.

Aşşurbanipalın kitabxanasında 20 min gil lövhənin olması haqqında məlumat vardır. Həmçinin bir sıra tarixçilər belə yazırlar ki, lövhələrin sayı 100 minə çatırmış. Bu kitabxana həmçinin öz fondunun zənginliyindən başqa, nadirliyi ilə də fərqlənirdi. Aşşurbanipal böyük kitab həvəskarı olduğundan qədim dünyanın bütün ölkələrindən kitablar gətizdirir, onların üzünü köçürtdürüb öz kitabxanasına daxil edirdi. Təəssüf ki, bu böyük mədəniyyət mərkəzi eradan əvvəl 609-cu ildə midiyalılar tərəfindən dağıdılıb yerlə yeksan edildi.

Qədim dünyada ən çox yayılan yazı materiallarından biri də papirus olmuşdur. Papirusun vətəni Misirdir. Nil çayının sahillərində bataqlıq yerlərində qəribə görkəmi olan bir bitki yetişirdi. Yerli əhali bu bitkidən yemək, içmək, paltar, ayaqqabı, qayıq və həmçinin kağız hazırlayırdı. Qədim dünyada papirus

yazı materialına böyük tələbat olduğundan Misirdə böyük fabriklər meydana gəlmişdi. Ən böyük papirus fabriki İsgəndəriyyə şəhərində tikilmişdi. Buradan Romaya, Yunanıstana və Şərq ölkələrinə papirus ixrac edilirdi.

Misirdə papirusun ixtirası və onun istehsalının geniş vüsət alması dünya kitabçılığının və kitabxana işinin inkişafına böyük təkan verdi. Kitabların üzünü köçürüb çoxaltmaq üçün yaranmış əlverişli şərait inkişaf etmiş qədim dünya ölkələrində yeni böyük kitabxanaların meydana gəlməsinə səbəb oldu. Papirus dünya kitabçılığı tarixində bəşəriyyətə uzun illər boyu – kağızın kəşfinə qədər xidmət edən yazı materialı olmuşdu. Dünyada ən böyük və qədim kitabxanaların beşiyi olan Misirdə, Yunanıstanda, Romada kitabxana işinin belə böyük vüsət almasında papirusun rolu şübhəsizdir.

Qədim misirlilər papirus ağacının gövdəsini kəsici alətlə nazik və mümkün qədər enli zolaqlara ayırırdılar. Sonra bu zolaqları Nil çayının lili ilə bir-birinə yapışdırıb bütöv bir səhifə düzəldirdilər. Bu cür səhifələr olduqca sərt olduğundan kağız kimi bükmək mümkün deyildi. Onu xüsusi hazırlanmış, oxloya oxşar kiçik ağacların üzərinə bükürdülər. Belə bükmələrin uzunluğu bəzən 100 metrə çatırdı. Məhz buna görədir ki, qədim misirlilər papirusdan hazırlanmış kitablara «Lent-kitab» da deyirdilər.

Tarixçilər Misiri bəşəriyyətin beşiyi adlandırırlar. Misir torpağı həmçinin bəşəriyyət fikrinin xəzinəsi sayılan kitabxanaların da beşiyi olmuşdur. «Fikir gəmisi» (F.Bekon) bəşəriyyətə yeni bilik torpaqları



kəşf etmək üçün məhz buradan ucsuz-bucaqsız bir səyahətə çıxmışdır. Bu səyahət heç də uğursuz olmamış, dünya sivilizasiyasının əsas silahlarından biri olan kitabın yayılmasında, kitabxanaların yaradılmasında böyük nailiyyətlər əldə etmişdir.

Belə uğurlardan biri kimi bəşər mənəvi sərvətinin daşıyıcılarını özündə toplamış, qədim dünyanın ən böyük kitabxanası kimi tanınmış İsgəndəriyyə kitabxanasının meydana gəlməsini qeyd etmək olar.

Dünyanın ən qədim kitabxanası İsgəndəriyyə kitabxanasıdır. Bu kitabxananın əsası eradan əvvəl III əsrdə qoyulmuşdur. Çar Ptolomeyin dövründə görkəmli yunan alimləri və ədəbiyyatçıları Demetriy, Falerski, Zanodit və Kallimax bu kitabxananın təşkilində və formalaşmasında yaxından iştirak etmişlər. Kitabxana iki hissədən ibarət idi. Birinci hissə muzeydə saxlanılırdı ki, burada 500 min nüsxə kitab var idi. İkinci hissə isə ziyarətgahda saxlanılırdı və burada 150 min nüsxə kitab var idi.

Dünya kitabxanaçılığının ilk biblioqrafiyası sayılan görkəmli adam Kallimaxın tərtib etdiyi kataloq haqqında məlumatın zəmanəmizə qədər gəlib çatması göstərir ki, qədim dünyanın fəxri hesab edilən bu kitabxana çox zəngin və nadir kitab fonduna malik olmuşdur. Müəyyən tarixi faktlara görə, yunan hökmdarları dünyanın yeddi möcüzəsindən biri olan bu kitabxananın fondunun komplektləşdirilməsinə və inkişafına böyük diqqət yetirirdilər. Kitabxana üçün kitablar təkcə Yunanıstandan deyil, qədim dünyanın hər yerindən toplanılırdı. Hökmdarlar kitabxanaya kitab almaq üçün pul vəsaiti ayırırdılar. Məşhur kitabların

üzünü köçürüb saxlamaq üçün girov verib dünyanın ayrı-ayrı ölkələrindən kitab alırdılar. Məlum olduğu kimi, İsgəndəriyyə dünyanın ən böyük liman şəhəri idi. Gəmi karvanlarının əksəriyyəti bu limana daxil olurdu. Bunu nəzərə alan çar Ptolomey III Evriqat belə bir göstəriş vermişdi ki, limana daxil olan gəmilər İsgəndəriyyə kitabxanası üçün ya bir kitab verməli, ya da imkanı olmayanlar üzü köçürülmək üçün bir kitab gətirməlidirlər. Kitabın üzünü köçürdükdən sonra orijinalın geri qaytarılmasına zəmanət verilirdi.

Məlumatlara görə, İsgəndəriyyə kitabxanasının taleyi haqqında tarixi mənbələrdə müxtəlif fikirlər mövcuddur. Bunlardan bəzilərini nəzərdən keçirək.

Yeni eranın 47-ci ilində Roma ordusu İsgəndəriyyəyə girərkən şəhər əhalisi ilə ordu arasında gedən şiddətli döyüş zamanı limanda yanğın baş vermiş, nəticədə kitabxanaya od düşmüş və kitabların xeyli hissəsi yanmışdır. Sonralar bu itkini ödəmək üçün Roma səfiri Mark Antoni Parqam kitabxanasından İsgəndəriyyə kitabxanası üçün Kleopatraya 200 min kitab vermişdir.

İsgəndəriyyə kitabxanası təxminən 10 əsr müddətində, yəni e.ə. III əsrdən bizim eranın VII əsrinə qədər bəşəriyyətə xidmət göstərmiş, dünya mədəniyyətinin və elminin inkişafına böyük töhfələr bəxş etmişdir. Dünya kitabxanaçılıq təcrübəsini zənginləşdirən, kitabxana quruculuğunun inkişaf yolunu işıqlandıran bu böyük elm mərkəzi kitabxanaçılıq fikrinin meydana gəlib formalaşmasına, dünya əhəmiyyətli kitabxanaların təşkili və idarəsi problemlərinin həllinə xeyli təkan vermişdir. Bu kitabxanaya qədim



dünyanın görkəmli alimlərindən Eratosfen, Zenodoy və Kallimaxın rəhbərlik etməsi kitabxananı kitabın yaradılmasında, üzünün köçürülməsində, təhlil və tənqid edilməsində, yayılmasında böyük elm mərkəzinə çevirmişdi. Kitabxanada tanınmış dilçilər, şairlər, filosoflar işləyirdilər.

Yunan mədəniyyətinin düşgünləşməsi və Misirin romalılar tərəfindən işğal edilməsi kitabxananın tənəzzülə uğramasına səbəb oldu. Kitabxanaya ən böyük zərər 390-cı ildə dəymişdir. Həmin il Roma imperatoru Fedosiyyi İsgəndəriyyə üzərinə hücuma keçmiş, Serapisin ziyarətgahını ələ keçirmiş, kitabxananın burada saxlanılan hissəsini talan və məhv etmişdir.

Kitabxananın qalan hissəsi isə VII-VIII əsrlərdə ərəblərin İsgəndəriyyəyə basqını və işğalı zamanı tamamilə yandırılıb məhv olunmuşdur.

Taleyi olduqca acınacaqlı qurtarmış bu kitabxana bəşər sivilizasiyası dövründə çox böyük xidmətə, şərəfə və şöhrətə malik olduğundan tarixin yaddaşında qədim dünyanın ilk böyük elmi kitabxanası kimi qalmışdır.

Dünya yazı materialları tarixində özünəməxsus yer tutan və papirusa nisbətən bir sıra üstünlüklərə malik olan material «perqament» olmuşdur. Mənbələrdən məlum olduğu kimi, hələ qədim zamanlarda heyvandarlıqla məşğul olan xalqlar gön və heyvan dərisi üzərində yazırdılar.

Ancaq perqamentdən yazı materialı kimi istifadə etmək, böyük perqament fabrikləri yaratmaq qədim dünyanın ən mühüm elm və mədəniyyət mərkəzlə-

rından biri olan Perqam şəhərinin adı ilə bağlıdır. Artıq e.ə. II əsrdə Perqam şəhərində perqament kitablar (dəri kitablar) saxlayan, dünyanın ən böyük kitabxanası olan İsgəndəriyyə kitabxanası ilə rəqabət aparmaq səviyyəsinə yüksələn Perqam kitabxanası yaranıb inkişaf etməyə başlamışdı.

Perqam (indiki Berqama) kiçik Asiyanın qədim şəhərlərindən biri idi. Şəhərin əsası Yunanıstandan gəlmələr tərəfindən bizim eradan əvvəl XII əsrdə qoyulmuşdur.

Qədim dünyanın ən böyük quldarlıq dövləti olan Perqam padşahlığı bizim eradan əvvəl 283-133-cü illərdə mövcud olmuşdur, Perqam şəhərini dünya mədəniyyət tarixində məşhurlaşdıran bəşəriyyətin ən böyük bilik xəzinələrindən biri sayılan Perqam kitabxanası olmuşdur.

Perqament heyvan dərisindən hazırlanırdı. Qədim Perqamada yazı materialı hazırlayan böyük emalatxanalar yaradılmışdı. Bu emalatxanalar heyvan dərisini aşılayır və çox keyfiyyətli yazı materialı hazırlayırdılar. Perqamada elə sənətkarlar (ustalar) yetişmişdi ki, onların hazırladığı yazı materialları kitabçılığın inkişafı üçün olduqca əlverişli şərait yaratmışdı.

Papirus materiallarından fərqli olaraq üzərində mətn yazılmış perqamentləri bükmək, onu indi gördüyümüz kitab halına salmaq mümkün idi. Perqamentin kəşfi dünya kitab mədəniyyəti tarixində böyük hadisə hesab edilirdi. Ancaq bu cür kitabların yeganə bir nöqsanı vardı ki, o da kitabların olduqca baha başa gəlməsi idi. Bir kitab hazırlamaq üçün çoxlu heyvan



kəsmək lazım gəlirdi ki, onların dərisindən yazı materialı hazırlamaq mümkün olsun.

Perqam kitabxanasının yaranması haqqında belə bir tarixi fakta isnad edirlər ki, Perqamın o zamankı hakimi II Evmen böyük bir kitabxana yaratmaq fikrinə düşür. Bu məqsədlə o, qədim dünyanın bütün ölkələrindən kitablar toplamaq, onların üzünü köçürtdürmək və öz kitabxanasını zənginləşdirmək qərarına gəlir. Kitabların üzünü köçürtdürüb çoxaltmaq üçün isə yazı materialı tələb olunurdu. Yazı materialı almaq üçün II Evmen Misir hökumətinə müraciət edir. Lakin daha böyük kitabxananın meydana gələcəyindən və İsgəndəriyyə kitabxanasının dünya şöhrətinin azalacağından ehtiyat edən çar III Ptolomey Perqamaya papirus satmaqdan imtina edir. Məhz buna görə də perqamlılar papirusu əvəz edəcək yeni yazı materialı axtarışına başlayırlar. Nəticədə perqament kəşf edilir. II Evmenin göstərişi ilə qədim dövrün görkəmli memarı Bitruziya tərəfindən kitabxana üçün əzəmətli bir bina tikilmişdi. Bu binanın pəncərələri şərqə açılırdı. Memarın dediyinə görə, bu, kitabların yaxşı saxlanması və binanın işıqlı olması üçün əlverişli şərait yaradırdı.

Qədim dünya kitabxanalarının tarixindən danışarkən görkəmli yunan alimlərinin şəxsi kitabxanaları haqqında məlumat verməmək olmaz.

Şəxsi kitabxanalar kitabxana tarixində bilik mənbəyi olan qədim kitabların nəsildən-nəsilə çatdırılmasında, ictimai kitabxanaların yaradılmasında, elmin və mədəniyyətin tərəqqisində mühüm rol oynamışdır.

45845
M.F.Axundov adına
Azərbaycan ...
Kitabxanası

Şəxsi kitabxanalara Platonun, Aristotelin, Feofratın, Evripidin, Demosfenin kitabxanalarını misal göstərmək olar. Aristotelin kitabxanası müharibə zamanı – yeni eranın 86-cı ilində Romaya aparılmışdır.

Qədim dünya kitabxanaları tarixində Roma kitabxanalarının da xüsusi yeri vardır. Kitabxanaçılıq işinin təkmilləşdirilməsində, kitabxanadan istifadə edən oxucu dairəsinin genişlənməsində Roma kitabxanalarının böyük uğurları olmuşdur. Romalıların ilk kitabxanaları müharibələr zamanı əldə edilən kitablar hesabına yaranmışdı.

Romalıların hərbi başçısı Emiliy Pavel yunanlarla müharibələr zamanı yunan hökmdarlarından Perseya Luklunun, Pantiya çarı Sullun və Aristotelin kitabxanalarını qarət edib aparmışdır.

Bizim eranın II əsrinə qədər romalılar kitabları az qiymətləndirirdilər. Məsələn, Korfagen alınan zaman bütün əlyazma kitabları Afina çarları arasında bölüşdürülmüşdü. Ancaq çox da məşhur olmayan Maqon adlı bir müəllif tərəfindən torpaqşünaslığa aid yazılmış 28 kitab senatın göstərişi ilə «təcrübi əhəmiyyəti» olduğuna görə latın dilinə tərcümə edilmişdi. Yalnız Roma hökmdarı Yuli Sezar yunan və latın dillərində kitablardan ibarət ümumi kitabxana təşkil etməyi lazım bilmişdir. Yaradılacaq bu kitabxananın başına «Kitabxana haqqında» əsər yazmış görkəmli yazıçı Marka Terensiya Varronnanın qoyulacağı nəzərdə tutulmuşdu. Sezarın öldürülməsi bu işin həyata keçirilməsinə mane oldu. Romada birinci ümumi kitabxana yeni eradan əvvəl 39-cu ildə görkəmli tarixçi, natiq, şair Aziney Pollion tərəfindən təşkil edildi. Bunun arxasınca imperator Avqust 2 kitabxananın əsasını qoydu. Bundan sonra Roma imperatorlarından Tiberiy, Vespasian, Tryan və başqaları kitabxanalar təşkil etdilər. Bizim eranın III əsrində Romada 28 kitabxana var idi. Yunanıstanda olduğu kimi Romada da binalar gözəl naxışlarla bəzədilir, mərmər pilləkənlər və sütunlar düzəldilirdi. Kitabxana binalarında görkəmli yazıçıların, alimlərin, elm, ədəbiyyat və incəsənətlə əlaqədar olan allahların heykəlləri qoyulurdu. Papirus və perqament üzərində yazılmış əsərlər dillərə, yəni yunan və latın dilinə ayrılaraq şkaflarda düzülürdü. Əsas elm sahəsi coğrafiya, tibb, tarix və fəlsəfə idi. Poeziyaya xüsusilə böyük bölmələr ayrılmışdı. Böyük kitabxanalarda, məsələn, Ulniya kitabxanasında (Çar Tryanın kitabxanası) kitabların əlavə nüsxələri nəşr illərinə görə və kitabı yazanın adına görə sistemləşdirilirdi. Roma kitabxanalarının başlıca xüsusiyyətlərindən biri onların təsnifləşdirilməsi idi. Məsələn, çar Avqustun kitabxanasında (Apallon məbədgahı yanında) qədim latın müəlliflərinin kitabları, Vespasianın kitabxanasında qrammatika kitabları, Ulniya kitabxanasında müxtəlif nadir kitabdar (kətan üzərində, fil sümüyü üzərində yazılmış kitablar) saxlanılırdı. Bir çox kitabxanalarla kitablar evə verilirdi. Ancaq qeyd etmək lazımdır ki, romalılar qiraətxanalara çox həvəslə gəlir, yeni kitabları müzakirə edirdilər.

Kitabxanalara müdirlik etmək prokuratorlara tapşırılırdı. Qaydaya görə prokuratorlar görkəmli alimlər və şairlər olmalı idi. Kitabxananın başqa əməkdaşları ayrı-ayrı şəxslər və qullar ola bilərdi. Bunlara «librariyalar» (kitabçılar) deyirdilər. Onlar kitabxananı qay-

daya salır, bəzən isə əlyazmaların üzünü köçürürdülər. Maraqlı burasıdır ki, bəzi hamamların (teramaların) yanında kitabxana olurdu. İmperatorlar, məsələn, Dioeletian buraya ancaq yuyunmağa deyil, idmanla məşğul olmağa, fəlsəfi mübahisələr aparmağa, musiqi dinləməyə, kitablar oxumağa gəlirdi. Bundan başqa, kitab dükanları da bir növ kitabxana idi. Burada yeni kitabları oxumaq və nəzərdən keçirmək olardı. İctimai kitabxanalar təkcə Romada yox, imperiyanın başqa şəhərlərində (Tiburada və Komada) da var idi. Belə bir məlumat var ki, məşhur yazıçı Kiçin Piliney Koma kitabxanasına I milyon 100 min manat pul bağışlamışdı. Bundan başqa, Romanın özündə və əyalətlərində xüsusi kitabxanalar da var idi. Bir sıra alimlər və yazıçılar çoxlu miqdarda əlyazma kitablarına malik idilər. Məsələn, Epafroditanın qrammatika kitabxanasında 30 min müxtəlif əsər, yazıçı Sammonik Serenanın kitabxanasında isə 60 mindən artıq əlyazma kitabları toplanmışdı.

Xüsusi kitabxanalar həmişə bilik mənbəyi kimi xidmət göstərməmişlər. O dövrdə geniş və zəngin kitabxanası olan imperator Avqustun kitabxanasından heç kim istifadə etmirdi. Kitablar qonaqlara göstərilmək üçün saxlanılan zinət vasitəsinə çevrilmişdi. Romanın ümumi və xüsusi şəhər kitabxanaları bir neçə dəfə baş vermiş yanğınlar zamanı tamamilə məhv olmuş, sonradan yenidən bərpa edilmişlər. Bizim eranın 54-cü ilində güclü yanğın zamanı kitabxanalar yenə də yanıb sıradan çıxmışdı. Eramızın 80-ci ilində Oktavin kitabxanası, 363-cü ilində isə Palatinski kitabxanası yanıb məhv olmuşdu. Bəzi kitabxanaların



yandırılmasında imperatorlar da iştirak edirdilər. Məlum olduğu kimi imperator Domisian belə bir əmr vermişdi ki, onun xoşuna gəlməyən tarixçilərdən Dyusiya Rustikanın və Kerenniya Senasionnanın kitabları yandırılsın. II əsr tarixçilərindən Ammian Marsellin kitabsaxlayıcıları ölü qəbirləri ilə müqayisə etmişdir.

İlk baxışda adama belə gəlir ki, antik kitabxanalar imperatorların fəaliyyəti sayəsində təşkil edilmiş və genişlənmişdir. Əslində belə deyildir. İmperatorlar öz nüfuzlarının möhkəmlənməsi üçün kitabxanalar təşkil edirdilər.

Beləliklə, bütün bunlar təsdiqləyir ki, bəşəriyyətin yaddaşı kimi şöhrət tapan, dünya mədəniyyətinin ən qiymətli incilərindən hesab edilən kitabxanaların çox qədim və zəngin bir tarixi vardır. Kitabxanalar məlumat mənbəyi kimi lap qədim dövrlərdən mədəniyyət və elm xadimlərinin, qədim filosofların diqqətini cəlb etmiş, sosial tərəqqidə onların rolu yüksək qiymətləndirilmişdir. Heç təsadüfi deyil ki, qədim dünya və orta əsrlər kitabxanalarının ilk kitabxana xadimləri, kitabxanaçı və biblioqrafları görkəmli filosoflar, alimlər və mədəniyyət xadimləri olmuşlar. Biz bir elm kimi kitabxanaşünaslığın özülünə qoyulan ilk daşlara görə də həmin alimlərə borcluyuq. Kitabxanaları mədəniyyətin, xalq maarifinin, elmi tərəqqinin əsas amili kimi qiymətləndirən, onların xidmətindən bəhrələnən görkəmli şəxsiyyətlər işlədikləri kitabxanaların təşkili prosesinə, kitab fondlarının zənginləşməsinə, kataloqların, biblioqrafik vəsaitlərin yaradılmasına, oxuculara xidmət işinin yaxşılaşdırılmasına

ciddi diqqət yetirmişlər. Onların atdığı hər bir addım, irəli sürüb həyata keçirdiyi hər bir ideya kitabxanaşünaslıqda yeni-yeni cığırlar açmış, onun gələcək inkişafına, kitabxanaçılıq problemlərinin düzgün həllinə şərait yaratmışdır.

Cəmiyyət tarixinin, xüsusilə də mədəniyyət tarixinin tərkib hissəsi olan kitabxana işinin tarixi lap qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər kitabxanaların tarixini, kitabxanaların keçdiyi mürəkkəb, ziddiyyətli və çətin inkişaf yolunu tədqiq edib öyrənmiş, tarixi inkişaf prosesinin müxtəlif dövrlərində və mərhələlərində onun cəmiyyətdə tutduğu mövqeyi, xalqın təhsilində, maarifində, ideoloji tərbiyəsində rolunu göstərmişdir. «Kitabxana işinin tarixi kursu»nun obyekti kitabxanalardır. Kitabxanalar öz vəzifələrini yerinə yetirmək üçün kitab, tərbiyə, təhsil, insan psixologiyası, mədəni tərəqqi, insanların intellektual səviyyəsi, sosiologiya və s. problemlərlə əlaqədar fəaliyyət göstərirdilər. Ona görə də kitabxana işinin tarixi pedaqogika, psixologiya, kitab tarixi, biblioqrafiya, fəlsəfə, sosiologiya, informatika və s. elmlərlə kitabxanaşünaslığın əlaqəsi problemlərini öyrənməli və onların nailiyyətlərindən bəhrələnməlidir. Kitabxana tarixi kitabxana işini kompleks şəkildə öyrəndiyindən kitabxanaların tarixi, onların keçdiyi yolla yanaşı olaraq, kitabxana işi prosesini, oxucuya xidmətin təşkili problemlərini də öyrənir. Yəni kitabxana işinin tarixi həmçinin kitabxanaşünaslığın bir elm kimi öyrənilməsində, onun tarixi inkişaf prosesində keçdiyi yolun əldə etdiyi nailiyyətlərin, kəşflərin öyrənilib ümumiləşdirilməsində də mühüm rol



oynayır. Bu baxımdan kitabxana işinin tarixinə kitabxanaşünaslığın elmi tarixini öyrənən bir fənn kimi də baxmaq olar. «Kitabxana işinin tarixi kursu»nun predmeti və tədqiqat obyekti kitabxanalardır. Kitabxanaların yaranması cəmiyyət inkişafının çox qədim dövrlərinə aid olduğundan kitabxananın tarixini öyrənən, tədqiq edən, ümumiləşdirən kitabxana işi tarixinə aid məlumatlar da çox qədim dövrlərdən sistemləşdirilməyə başlamış, elmi və tarixi biliklər kimi təşəkkül tapıb formalaşmışdır. Kitabxana işinin tarixinə aid biliklər mədəniyyət tarixçiləri ilə yanaşı kitabxanaçıların da diqqətində olmuş, onlar kitabxana işinin elmi-nəzəri problemlərini işlədikcə bu biliklərin inkişafına, sistemləşdirilməsinə kömək etmiş, kitabxana işi prosesini təkmilləşdirmiş, keçmişin təcrübəsindən istifadə etməklə bu biliklərdən bəhrələnmişlər.

Beləliklə, «Kitabxana işinin tarixi» fənni cəmiyyət tarixinin, mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olduğu kimi zaman keçdikcə kitabxanaşünaslığın da tərkib hissəsinə çevrilmiş, onun strukturuna daxil olmuşdur. Hazırda kitabxana tarixçiləri arasında müxtəlif nöqteyi-nəzərlərin olmasına baxmayaraq, onların əksəriyyəti kitabxana işinin tarixinin kitabxanaşünaslığın tərkib hissəsi kimi qəbul edirlər. Bu, hər şeydən əvvəl, kitabxana işi tarixiinn tədqiqat obyektinin kitabxanaşünaslıqla əlaqədar olması ilə eyni obyektin hər iki sahənin (kitabxanaşünaslıq və kitabxana işi tarixinin) tədqiqat obyekti olması şərtlənir. Qədim dövrlərdə və orta əsrlərdə bəşər mədəniyyətinin tərəqqi və inkişafında olduqca çoxlu nailiyyətlər əldə edilmiş, yeniliklər baş vermiş, mədəniyyət, elm,

təhsil, tərbiyə, texniki tərəqqi cəmiyyətin həlledici qüvvələrinə çevrilmişdir. Bütün bunlar isə xalqın yaddaşı olan kitaba yazılı abidəyə böyük tələbat yaratmışdı. Kitab mədəniyyətin, elmin, maarifin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir, onun yayılması üçün hər cür tədbir görülürdü. Yazı materiallarının inkişafına kitab üzünün köçürülməsinə, kitab üzü köçürən və onu tərtib edib yayan emalatxanaların yaradılmasına xüsusi diqqət yetirilirdi. Dünyanın qabaqcıl ölkələrində kitab çapının meydana gəlməsi, çap maşınının yaradılması bəşəriyyət tarixində böyük inqilabi hadisə oldu. Çap maşınının ixtirası kitabın kütləviliyini təmin etməklə yanaşı, həm də onu mədəniyyətin, elmin, maarifin əvəzsiz silahına çevirdi, bəşər mədəniyyətinin əsas hərəkətverici amili kimi formalaşdırdı. Kitab nəşrinin genişlənməsi, onun tirajının dinamik surətdə artması cəmiyyətdə onun yerini möhkəmləndirdi, kitabı geniş xalq kütlələrinin malına çevirdi. Mədəniyyətin, elmin, xalq təhsilinin inkişafı, elmi-texniki tərəqqinin nailiyyətləri kitaba və onu toplayıb saxlayan, nəsildən-nəslə çatdıran kitabxanalara böyük tələbat əmələ gətirmişdi.

Dünyanın qabaqcıl ölkələrində kitabxanalar şəbəkəsi genişlənmiş, onların yeni tipləri və formaları meydana gəlib möhkəmlənmişdi. Kitaba və mütaliəyə olan böyük tələbat kitabxana işinin inkişafı və tərəqqisini, bu sahədə ciddi dönüş yaradılmasını, kitabxana işinin kökündən yaxşılaşdırılmasını, kitabxana işi forma və üsullarının elmi əsaslar üzərində qurulmasını, kitabxana işinin təcrübəsinin ümimiləşdirilməsini tələb edirdi. Beləliklə, cəmiyyətdə kitabxanaşünaslığın nəzəri problemlərinin öyrənilməsinə zərurət artmışdı. «İnsan və kitab» və «kitabxana və cəmiyyət» problemlərinin kompleks şəkildə öyrənilməsi zəruriliyi kitabxanaşünaslıq nəzəriyyəsinin yaranıb formalaşmasını tələb edirdi. Bu komplekslərin formal kateqoriyalar kimi deyil, cəmiyyətin sosial, iqtisadi və mədəni həyatı ilə üzvi surətdə bağlı, yeni bütöv və ictimai bir hadisə kimi araşdırılması kitabxanaşünaslığın əsas vəzifəsinə çevrilmişdi. Məhz buna görədir ki, kitabxanaşünaslıqda kitab sərvətlərindən istifadə edilməsi, kitabın yayılması, kütləvi mütaliənin təşkili, mütaliənin nəzəri problemləri hakim mövqe tuturdu. İrəli sürülən nəzəri müddəalar «kitabxana və cəmiyyət», «insan və kitab» kompleks problemlərin həllinə xidmət etməklə kitabxanaların ən mühüm vəzifəsi olan kitabxana və oxucu probleminin dərindən öyrənilməsi üçün şərait yaradırdı. Kitabxana və oxucu problemi kitabxanaşünaslığın başlıca problemi kimi ortaya çıxdığından kitabxanaşünaslığın elmi əsaslarının formalaşması mühüm əhəmiyyət kəsb edir, kitab və oxucu, kitabxanaçı və oxucu probleminin həlli imkanı yaranır. Məhz oxuculara xidmət prosesinin elmi metodiki yollarını, üsullarını və kanallarını əlaqəli şəkildə öyrənməklə kitabxanaşünaslığın son nailiyyətlərinə yiyələnmiş kitabxanaçının rolu meydana çıxır. Kitabxanaçı peşəsi formalaşır, cəmiyyətdə onun rolu, vəzifələri aydınlaşdırılır.

Beləliklə, kitabxanaşünaslığın tədqiqat predmeti cəmiyyətdə kitabın yayılması və dövriyyəsi prosesindən irəli gələn mürəkkəb problemlərin çoxsahəli kompleksindən ibarətdir.

Oxucu və mütaliə prosesi, mütaliənin sosial təbiəti, ictimai tələbata çevrilməsi, kütləviliyi, funksiyaları, kitabın yayılmasında və dövriyyəsində kitabxananın yeri, kitabxana və şəxsiyyət, kitab təbliğinin, mütaliəyə rəhbərliyin, əhaliyə kitabxana xidmətinin elmi əsasları, kitabxanaların tipologiyası, kitabxana siyasətinin əsasları, kitabxana sisteminin formalaşdırılması prinsipləri, kitabxana işinin idarə edilməsi, kitabxana işinin perspektivlərinin proqnozlaşdırılması, kitabxanaçı kadrların yerləşdirilməsi problemləri və s. məsələlər kitabxanaşünaslığın tədqiqat obyektinin əsasları kimi meydana çıxır. Kitabxanaşünaslıq humanitar elm olub, kitabxanaçılıq prosesinin inkişaf qanunauyğunluqlarını, xassələrini, xarakter və quruluşunu öyrənir, çap əsərlərindən ictimai istifadəni insanların tərbiyəsinin və mədəni, texniki, intellektual səviyyəsinin yüksəldilməsi vasitəsi, elm və texnikanın nailiyyətlərini yaymağın mühüm kanalı kimi nəzərdən keçirir.

Kitabxanaşünaslıq kitabxanaların sosial rolunu və xarakterik xüsusiyyətlərini ölkənin mədəni, iqtisadi, sosial siyasi hadisələri ilə əlaqədar olaraq öyrənir, ümumiləşdirmələr aparır, elmi əsaslara, təcrübi bazaya söykənən nəzəri müddəalar irəli sürür.

Kitabxanaşünaslığın nəzəri əsasları mədəni quruculuğun və həmçinin kitabxana işinin toplanmış təcrübəsinin öyrənilib ümumiləşdirilməsi əsasında işlənib hazırlanır.

Kitabxanaşünaslığın metodoloji əsası və problemləri hər bir tarixi mərhələdə sosial-iqtisadi şərait



və mövcud hakim ictimai quruluşun ideologiyası ilə müəyyənləşdirilir.

Başqa elm sahələri kimi kitabxanaşünaslığın da özünəməxsus quruluşu və ictimai funksiyaları vardır. Kitabxanaşünaslığın quruluşu ona daxil olan fənlərin çoxsahəliyi və mürəkkəbliyi ilə xarakterizə olunur. Bir elm sahəsi kimi kitabxanaşünaslığın problemləri aşağıdakı elmi fənlər daxilində öyrənilir.

1. «Kitabxanaşünaslığa giriş» - kitabxanaşünaslıq fənləri sistemində əsas yer tutan ümumnəzəri və əməli təcrübi xarakterli elmi fəndir. Bu fənn kitabxana işinin inkişaf qanunauyğunluqları, əhaliyə kitabxana xidmətinin təşkili, kitabxana işinin idarə edilməsi, kitabxana sisteminin formalaşması, kitabxanaların tipologiyası, kitabxana şəbəkəsinin yerləşdirilməsi və mərkəzləşdirilməsi kimi mühüm nəzəri əhəmiyyətə malik problemləri təşkil edir. İdeoloji və elmi informasiya müəssisələri olan kitabxanaların insanın tərbiyə edilməsində və qabaqcıl iş təcrübəsinin yayılmasında rolu və vəzifələri ümumi kitabxanaşünaslığa giriş fənninin tədqiqat obyektinə daxildir.

«Kitabxanaşünaslığa giriş» həmçinin ümumnəzəri fənn kimi kitabxana işinin elmi-nəzəri və təcrübi əhəmiyyətinin aşkara çıxarılması, dövlətin kitabxanaçılıq siyasətinin həyata keçirilməsi sahəsində də əhəmiyyətli tədqiqatlar aparır.

2. «Kitabxana fondu və kataloqları». Bu fənn müxtəlif tip və növdən olan kitabxanaların fondlarının yaradılması qanunauyğunluqlarını prinsiplərini öyrənir. Bu fənn xüsusi bölmələr əsasında kataloqların əhəmiyyət və vəzifələrini, əhaliyə kitabxana xidmə-

tinin təşkili prosesində rolunu, çap əsərinin təsviri və predmetləşdirilməsinə müvafiq olaraq əlifba, sistemli və predmet kataloqlarının təşkilini, quruluşunu və metodikasını öyrənir. O, həmçinin kataloqların təşkilini, kitabxanaların kataloq və kartoteka sistemini, mərkəzləşdirilmiş kataloqlaşdırmanı, kataloqların mexanikləşdirilməsi və avtomatlaşdırılmasını, habelə təsnifləşdirmə nəzəriyyəsi və metodikası məsələlərini tədqiq edir.

3. «Oxucularla iş» -mütaliə prosesinin və oxucuların öyrənilməsi prosesinin və oxucuların öyrənilməsinin nəzəri və metodik məsələlərindən bəhs edir. Mütaliənin kütləvi xarakter aldığı, kitab təbliğinin daha da mürəkkəbləşdiyi müasir şəraitdə «Oxucularla iş» fənninin tədqiqat obyekti genişlənmiş və o, nəzəri cəhətdən əsaslandırılmasını, sosioloji tədqiqatların təhlili və ümumiləşdirilməsi əsasında nəticələr çıxarılmasını tələb edən bir fənnə çevrilmişdir. Kitabxanalarda oxucu mütaliəsinə rəhbərlik, kitab təbliğinin, oxuculara xidmət sisteminin prinsip və metodlarının öyrənilməsi məsələlələri də bu fənn tərəfindən öyrənilir. Oxucularla işin psixoloji və ideoloji əsaslarının yaranması, kitabxana psixologiyasının və pedaqogikasının yaranmasında «Oxucularla iş» fənni mühüm rol oynayır.

4. «Kitabxana işinin təşkili, iqtisadiyyatı və idarə olunması». Müasir şəraitdə bu fənnin tədqiqat obyekti xeyli genişlənmiş, kitabxana işi prosesinin bir çox mühüm sahələrini əhatə edən fənnə çevrilmişdir. Bu fənn müxtəlif tipli kitabxanaların quruluşunu kitabxana işinin planlaşdırılması və uçotu, kitabxanaların



maddi-texniki bazasının yaradılmasını, kitabxanaçı əməyinin elmi təşkili və normalaşdırılması, kitabxana işi prosesinin texnologiyası və mexanikləşdirilməsi, kitabxanalara metodiki rəhbərlik məsələlərini öyrənir.

5. «Kitabxana işinin tarixi». Son zamanlar müstəqil elm sahəsi kimi inkişaf edən «Kitabxana işinin tarixi» fənni də kitabxanaşünaslığın tərkib hissəsini təşkil edir. Cəmiyyət tarixinin tərkib hissələrindən biri olan kitabxana işinin tarixi, cəmiyyətin inkişafının müxtəlif mərhələlərində kitabxana işinin inkişaf qanunauyğunluqlarını meydana çıxarır, kitabxanaların sosial rolunu, ideoloji əhəmiyyətini, elm, maarif, mədəniyyət və xalq təsərrüfatının inkişafındakı xidmətini meydana çıxarıb ümumiləşdirir, əhaliyə kitabxana xidmətinin vəziyyətini öyrədir və həmçinin kitabxanaçılıq fikrinin inkişafını təhlil edir. Kitabxana tarixinin öyrənilməsi kitabxanaşünaslığın bir elm kimi formalaşıb inkişaf etməsi, onun nəzəriyyə və təcrübəsinin təkmilləşdirilməsi üçün də faydalıdır. Hər bir elmin keçdiyi yolu bilmək o elmin özünün inkişafı, qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həll edilməsi zərurətindən doğur. Mədəniyyət tarixinin mühüm sahələrindən biri olan kitabxana tarixinin öyrənilməsi sahəsində görülən işlər buna misal ola bilər. Son zamanlar ölkəmizdə «Kitabxana işinin tarixi kursu»nun tədqiqi obyektinin, predmetinin və vəzifələrinin müəyyənləşdirilməsinə, onun inkişaf edib müstəqil elm sahəsi kimi formalaşmasına dair qiymətli araşdırmalar meydana gəlmişdir. Bu tədqiqatlarda kitabxana tarixinin keçdiyi yol öyrənilməklə yanaşı, müasir dövrdə əhaliyə kitabxana xidmətinin təkmil-

ləşdirilməsi məqsədilə kitabxana işinin qabaqcıl təcrübəsinin ümumiləşdirilməsində və kitabxana işinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində mühüm rola malik olması da qeyd edilmişdir.

Qeyd etdiyimiz kimi, «Kitabxana işinin tarixi» humanitar elmdir. Onun metodoloji əsasını tarixilik, obyektivlik, milli ideologiya təşkil edir. Cəmiyyət tarixinin tərkib hissələrindən biri olan kitabxana işinin tarixi mədəniyyət tarixi, maarif tarixi, kitab və biblioqrafiya tarixi, həmçinin sosiologiya ilə sıx əlaqədardır. «Kitabxana işinin tarixi» fənni cəmiyyətin inkişafının müxtəlif mərhələlərində kitabxana işinin inkişaf qanunauyğunluqlarını meydana çıxarır, kitabxanaların ictimai rolunu, ideoloji əhəmiyyətini, mədəniyyətin, maarifin, elm, texnika və təsərrüfatın inkişafındakı rolunu aşkara çıxarıb ümumiləşdirir. «Kitabxana işinin tarixi» əhaliyə kitabxana xidmətinin vəziyyətini öyrədir, həmçinin kitabxanaçılıq fikrini və kitabxanaçılıq təhsilinin inkişafını təhlil edir.

A.İ.Kertsen yazır ki, keçmişi tamamilə dərk edərək biz müasirliyi aydınlaşdırırıq; olmuş hadisələrin mənasının dərinliyinə getməklə, gələcəyin mənasını açırıq, arxaya baxıb irəliyə addımlayırıq. Kitabxana işinin tarixinə aid biliklər bizi təkcə keçmişi öyrənmək üçün yox, müasirliyi yaxşı başa düşmək, əhaliyə kitabxana xidmətini hərtərəfli yaxşılaşdırmaq üçün də zəruridir. Bunun üçün isə kitabxanaçı kadrların elmi-nəzəri səviyyəsinin yüksəlməsi, ixtisas biliklərinin təkmilləşdirilməsi vəzifələri meydana çıxır ki, bu da kitabxanaçıdan öz işinin tarixini yaxşı bilmək, milli kitabxana quruculuğunun bütün mərhələlərində baş



vermiş hadisələri dərk etmək, onu təhlil edib ümumiləşdirmək bacarığına yiyələnməyi irəli sürür.

Keçmiş yolu düzgün və ədalətli qiymətləndirməklə kitabxana tarixi nəzəriyyəçilərə və təcrübəçilərə əvvəllər buraxılmış səhvləri təkrar etməməyə, artıq kəşf edilmişləri yenidən kəşf etmək üçün vaxt sərf etməməyə, elmi tədqiqatın əsas istiqamətlərini düzgün təyin etməyə, ötən nəsillərin qazandığı hərtərəfli təcrübələri fəal surətdə yeni dövrün xidmətinə verməyə kömək edir.

«Kitabxana işinin tarixi»nin öyrənilməsi həmçinin kitabxanaşünaslığın bir elm kimi formalaşıb inkişaf etməsi, nəzəriyyə və təcrübəsinin təkmilləşməsi üçün də böyük əhəmiyyətə malikdir.

N.Q.Çernışevski yazırdı ki, tarixi olmayan predmetin nəzəriyyəsi yoxdur. Kitabxana tarixi kitabxana işinin nailiyyətlərini dərindən və hərtərəfli öyrənməyə, ümumiləşdirməyə, həmçinin Azərbaycanda əhaliyə kitabxana xidmətinin inkişafı perspektivlərini müəyyənləşdirməyə yaxından kömək edir.

Kitabxana tarixi mədəniyyət tarixi ilə sıx əlaqədar olduğundan və ayrılmaz tərkib hissəsini təşkil etdiyindən onun əsas vəzifələrindən biri mədəni quruculuqda kitabxanaların yerini və müxtəlif mədəniyyət müəssisələrinin qarşılıqlı əlaqəsini müəyyənləşdirməkdir. Kitabxana işinin inkişaf prosesini, kitabdan ictimai istifadənin təşkili haqqında cəmiyyətin ideya və baxışlarını aydın təsəvvür etmədən və həmçinin kitabxana quruculuğu sahəsində əldə edilmiş təcrübəni təhlil edib öyrənmədən, ondan tənqidi su-

rətdə istifadə etmədən müasir kitabxanaşünaslığın inkişafı mümkün deyildir.

Kitabxana işinin nəzəriyyəsini yaratmaq olduqca mürəkkəb bir proses kimi kitabxana işinin təcrübəsinin öyrənilməsini tələb etdiyindən, təcrübi biliklərin ümumiləşdirilməsi və müəyyən sosioloji tədqiqatların aparılması zərurətini irəli sürür. Bunun üçün isə kitabxanaların tarixinin öyrənilməsi ön plana çəkilməlidir. Çünki, hər bir ümumiləşmə və sosioloji tədqiqat tarixilik prinsipinə əsaslanmağı öyrənilib, tədqiq edilib ümumiləşdirilən problemin tarixini bilməyi tələb edir.

Keçmişin iş təcrübəsinin öyrənilməsi keçmişdə baş vermiş səhv və çatışmazlıqlardan yaxa qurtarmaq, qabaqcıl iş prosesinə yiyələnmək imkanı verir. Kitabxana tarixi işini nailiyyətlərini dərindən və hərtərəfli öyrənmək, ümumiləşdirmək eyni zamanda respublikamızda kitabxana xidmətinin inkişaf perspektivlərini müəyyənləşdirməyə yaxından kömək edir.

Müasir dövrdə «Kitabxana işinin tarixi»ni ancaq keçmiş dövrə aid hadisələri öyrənən bir elm kimi düşünmək səhvdir. «Kitabxana işinin tarixi» keçmişə dair hadisələri yalnız sadalamaqla kifayətlənməməli, onları milli ideologiya baxımından, müasir dövrün tələbləri nöqteyi-nəzərindən təhlil edib qiymətləndirməli, keçmişin yaşamağa qadir, müasir dövrlə ayaqlaşa bilən Azərbaycanın müstəqilliyinə, suverenliyinə müvəffəqiyyətlə xidmət edə biləcək təcrübəsini elmi təhlil əsasında müəyyənləşdirməlidir. Gələcəkdə belə təcrübələrin kitabxanaların iş prosesində tətbiq edilməsi haqqında elmi tövsiyələr hazırlanmalıdır.



Ölkəmizdə kitabxana işinin tarixinin öyrənilməsində mühüm işlər görülmüşdür. Mədəniyyət tarixinə dair yazılmış əsərlərdə, görkəmli mədəniyyət tarixçilərinin tədqiqatlarında kitabxana işinin tarixinin öyrənilməsinə də xüsusi diqqət yetirilir. Belə əsərlərdə kitabxana işi mədəniyyətin ümumi inkişafı fonunda götürülür, statistik rəqəmlər əsasında təhlil edilir. Mədəniyyət tarixinə həsr edilmiş əsərlər kitabxana işinin tarixini lazımi dərəcədə əks etdirə bilməsə də cəmiyyətin ümumi inkişafında, insanların tərbiyəsində onun rolunu və əhəmiyyətini, mədəni müəssisələr içərisində onun yerini düzgün müəyyənləşdirir. Məhz buna görədir ki, görkəmli vətən tarixçilərinin mədəniyyət tarixinə dair əsərləri kitabxana tarixinin öyrənilməsi üçün böyük elmi, metodoloji əhəmiyyətə malikdir.

Son zamanlarda respublikamızda mədəniyyət tarixinin öyrənilməsi sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Namizədlik, doktorluq dissertasiyaları müdafiə edilmiş, monoqrafiyalar çap olunmuş və çoxlu miqdarda elmi məqalələr dərc edilmişdir. Azərbaycan tarixinə dair çoxcildlik əsərlərdə ayrı-ayrı monoqrafiyalarda mədəni quruculuq məsələsinə xüsusi yer verilmişdir.

Mədəniyyət tariximizin öyrənilməsi sahəsində professorlardan M.Y.Vəkilovun, N.A.Paşayevin, A.M.Atakişiyevin, T.Musayevanın tədqiqatları diqqəti xüsusilə cəlb edir. Bu qiymətli elmi araşdırmalarda respublikamızın mədəniyyət tarixi işıqlandırılarkən mədəni quruculuğun əsas sahələrindən biri kimi kitabxana işinə də xüsusi diqqət yetirilmiş, əhaliyə ki-

tabxana xidməti problemləri, yeri gəldikcə, ümumi şəkildə təhlil və izah edilmişdir.

Respublikamızda kitabxana tarixinin əsaslı şəkildə öyrənilməsi bilavasitə M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin adı ilə bağlıdır. Kitabxanaçılıq fakültəsinin müəllimləri respublikada ilk dəfə kitabxana tarixini elmi əsaslar üzərində tədqiq etmiş, elmi məqalələr, kitabçalar, monoqrafiyalar nəşr etdirmiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişlər. Fakültənin kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor A.A.Xələfovun tədqiqatı Azərbaycanda kitabxana işinin tarixinə həsr edilmişdir. A.Xələfovun kitabxana tarixinə dair üç monoqrafiyası və onlarla elmi məqaləsi nəşr edilmişdir. O, respublikamızda ilk dəfə olaraq 1961-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1930)» mövzusunda namizədlik və 1975-ci ildə isə «Azərbaycanda kitabxana işinin tarixi (1933-58)» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Dosent T.Quliyev isə Azərbaycan həmkarlar ittifaqı kitabxanalarının tarixinə dair tədqiqat aparmış və həmin mövzuda 1969-cu ildə namizədlik dissertasiyası müdafiə etmişdir. O, göstərilən mövzuda bir çox elmi məqalələr də çap etdirmişdir.

Dosent X.İsmayılov öz tədqiqatını partiya kitabxanaları şəbəkəsinin tarixinə həsr etmiş, 1984-cü ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

Dosent A.Abbasova isə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının tarixi haqqında



qiymətli elmi əsər yazmış və həmin mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir.

Dosent Z.Baxşəliyevin tədqiqatı Azərbaycan neft-sənayesi və texniki kitabxanalarının tarixinə həsr olunmuş, tədqiqat işi namizədlik dissertasiyası kimi müdafiə edilmişdir. Müəllifin texniki kitabxanaların tarixi mövzusunda bir sıra məqalələri çapdan çıxmışdır.

Dosent A.Əliyevin müdafiə etdiyi namizədlik dissertasiyası isə Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixinə həsr olunmuşdur.

Kitabxanaşünaslıq kafedrasının baş müəllimi Elman Bədəlovun «Sosializmin təkmilləşməsi dövründə Azərbaycan SSR-də kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)» mövzusunda namizədlik dissertasiyası olduqca böyük elmi təcrübi əhəmiyyətə malik idi.

Prof. A.Xələfovun rəhbərliyi ilə aparılan bu tədqiqatda 70-ci illərdə respublikamızda kənd əhalisinə kitabxana xidməti məsələləri elmi əsaslarla araşdırılmış, sosioloji və kitabxanaşünaslıq eksperimentləri əsasında ümumiləşdirmələr aparılmış, ciddi elmi tövsiyələr hazırlanmışdır.

Kitabxanaşünaslıq kafedrası son 2 ildə kitabxana tarixinə dair namizədlik dissertasiyalarının hazırlanması və müdafiəsi istiqamətində xeyli nailiyyətlər qazanmışdır. Bu dissertasiya işlərinin tədqiqində və müdafiəsində elmi rəhbər əməkdar elm xadimi professor A.A.Xələfovun elmi potensialı və şəxsi nüfuzu əhəmiyyətli rol oynamışdır.

2000-ci il dekabr ayının 6-da baş müəllim M.Ə.Məmmədov Bakı Dövlət Universitetində AAK tərəfindən yaradılmış Birdəfəlik İxtisaslaşdırılmış müdafiə şurasının iclasında «Azərbaycan Respublikası kitabxanalarında KAA sistemi (1918-1990) mövzusunda namizədlik müdafiəsi edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

Bununla yanaşı yenə 2000-ci il dekabr ayının 6-da həmin ixtisaslaşdırılmış müdafiə şurasında kitabxanaşünaslıq kafedrasının müəllimi E.Y.Əhmədov «Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (1901-1995) mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. E.Y.Əhmədov dissertasiya işində XX əsrin əvvəllərindən 1990-cı illərədək Azərbaycanda uşaq kitabxanalarının yaranma tarixini və inkişafın mərhələlərini tədqiq etmiş, həmçinin uşaq kitabxanalarının fəaliyyətinin səmərəlilik meyarına təsir edən mütərəqqi metodları tövsiyə etmişdir.

2001-ci il aprel ayının 25-də kitabxanaşünaslıq kafedrasının dissertantı Ə.Ş.Nəcəfov EA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində ixtisaslaşdırılmış müdafiə şurasında «Azərbaycan Respublikasının Dağlıq Qarabağ muxtar vilayətində kitabxana işinin tarixi (1923-1988) mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Əməkdar elm xadimi prof. A.A.Xələfovun rəhbərliyi ilə aparılan bu tədqiqatda dissertant 1923-88-ci illərdə DQMV-nin ərazisində kitabxana işinin tarixi və inkişaf mərhələlərini işıqlandırmış, həmçinin



1988-ci ilədək kitabxana quruculuğu və onun inkişafının əsas istiqamətlərini təhlil etmişdir.

Kitabxanaşünaslıq kafedrasında yerinə yetirilən dissertasiya işləri içərisində Ş.İ.İslamova tərəfindən tədqiq edilən «Azərbaycan Elmlər Akademiyası kitabxana şəbəkəsinin yaranması və inkişafı» (1923-1990) mövzusunda dissertasiya işi də aktuallıq kəsb edir. Dissertant tədqiqat prosesində 1923-1990-cı illərdə Elmlər Akademiyası kitabxana şəbəkəsinin yaranması və inkişaf mərhələlərini tədqiq etmişdir. Elmi tədqiqat işində müəllif EA kitabxana şəbəkəsinin səmərəli fəaliyyəti və informasiya xidmətinin operativliyinə təsir edən amilləri göstərmişdir.

Göstərilən elmi-tədqiqat işləri ilə yanaşı respublikamızda əməkdar kitabxanaçı H.Tağıyevin «Azərbaycanda kitabxanaçılıq işi» (Bakı, 1954) və «Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı» (Bakı, 1960) adlı kitabxana işinin tarixinə həsr edilmiş populyar xarakterli kitabları da çap edilmişdir.

| | |
|---|---|
| Nəşriyyatın direktoru: | Balakişi Ağayev |
| Baş redaktor: | Məmməd Əlizadə |
| Mətbəə üzrə direktor müavini: | Ələ Qasımov |
| Redaksiya müdiri: | Ulduza Canıyeva |
| Nəşriyyat redaktoru: | Afiqə Cəfərova |
| Korrektoru: | Şölə Məmmədova |
| Kompüter proqramçısı: | Azadə İmanova |

Yığılmağa verilmişdir 03.09.2002
Çapa imzalanmışdır: 30.09.2002-ci il.
Kağız formatı 60x84 1/16. Həcmi 1,27 ç.v.
Sifariş . Tirajı . Qiyməti müqavilə ilə

Bakı Universiteti nəşriyyatı,
Ünvan: Bakı - 370148, Z.Xəlilov küçəsi, 23.
Bakı Universiteti nəşriyyatının mətbəəsi

2002
1294

845